**1-3-cü sualları mətnə əsasən cavablandırın.**

I. *Onun fikrincə, Qurban kişi əvəzsiz adamdı.* II. *Bu əvəzsiz adam gündüzlər kənddə gözə dəymirdi.* III. *Ya idarəsində oturur, ya da evində yatırdı.* IV. *Gecələr isə, xüsusən müharibə başlanandan bəri, bəzən, hətta səhərə qədər at belində olurdu.* V. *Məhz bu xasiyyətinə görə çoxdandı ki, kənddə oğru-əyri yox idi.* VI. <u>Gecənin bir aləmində qaranlıq küçələrin hansındansa guruldayıb keçən nal səsləri eşidiləndə oyaq olanlar deyirdilər</u>: *"Qılınc genə qından çıxıb. Görəsən, kimi kəsməyə getdi".* VII. *Bunu şəksiz-şübhəsiz hökm kimi deyirdilər.* VIII. *Çünki Qurban kişi hər saatda qından çıxmır, çıxanda isə mütləq kəsirdi.* IX. *Kəndin ara-bərəsində, dörd-dövrəsində çərx vururdu.*

**1. Hansı cümlələrin yeri dəyişdirilsə, mətnin məntiqi ardıcıllığı bərpa olunar?**

A) V – VI
B) VII – VIII
C) V – IX
D) III – IV
E) III – IX

**2. Mətnin V cümləsi ilə budaq cümlənin növü baxımından eyni olan mürəkkəb cümləni müəyyən edin**.

A) Hər kim yüz il yaşamasa, günah onun özündədir.
B) Səbrin yoxdursa, el içinə çıxma.
C) Son sözü də bu oldu ki, dədə-baba adətlərimizi unutmayaq.
D) Harada ki təhsildə şəffaflıq var, ora yeni dünya ilə ayaqlaşa biləcək.
E) Bütün yollar palçıqdan keçilmirdi, çünki səhərə qədər yağış yağmışdı.

**3. Cümlə üzvlərinin sayına görə altından xətt çəkilmiş cümlə ilə eyni olan cümləni müəyyən edin.**

A) I
B) II
C) III
D) IV
E) V

**4. Altından xətt çəkilmiş sözlərdən biri mənsubluq baxımından fərqlidir**.

A) Bayrağı <u>əlində</u> çox böyük qürur və şərəflə tutmuşdu.
B) Səhər <u>dostundan</u> məktub almışdı.
C) <u>Qəlbində</u> kinə, nifrətə heç vaxt yer yox idi.
D) <u>Həyatını</u> mənasız şeylərə qurban vermə.
E) O, <u>qardaşını</u> dünən yola saldı.

**5. Bəndlərdən birində sintaktik əlaqələrin bütün növləri işlənmişdir:**

A) Bir məclisə varsan, özünü öymə...( Xəstə Qasım)
B) Niyə pərişandır halların, dağlar?! (A.Ələsgər)
C) Bu dünyanın xeyri də, şəri də təkrar olur... (B.Vahabzadə)
D) Sən elə gözəlsən binadan, Pəri. (M.P.Vaqif)
E) Heydərbaba, sənin üzün ağ olsun... (M.Şəhriyar)

**6. Boşluqlara ardıcıllıqla yazılmalıdır:**
k_mpaniya, dekl_rasiya, esk_lator, yeknəsə_, bat_reya, q_bar

A) o, o, o, q, a, u
B) a, a, a, q, a, a
C) o, a, a, k, a, u
D) a, a, o, q, e, a
E) a, o, o, k, e, u

**7. Hansı bənddə qara hərflərlə verilmiş hissə çıxarılsa, tabelilik əlaqəsi pozulmaz?**

A) Quzu**lar** mələşə-mələşə sürüyə tərəf qaçışırdılar.
B) İtkin düşən**lər** qəribə bir həyəcanla başlarına gələnləri danışırdılar.
C) Rəqib**lər** bizim haqq işimizə mane olmaq üçün müxtəlif üsullara əl atırlar.
D) Rəhbər**lər** öz tabeçiliyində olan işçilərə lazım olan tövsiyələri verməlidirlər.
E) Balaca**lar** maşının onlara tərəf gəldiyini görəndə sevinclə əl çalmağa başladılar.

**8. İlk sözdən sonra vergül qoyulsa, hansı cümlədə əsas nitq hissələrinin sayı dəyişməz?**

A) Qoy çanta kimindirsə, özü götürsün.
B) Rüfət hamısını düzgün cavablandırıb?
C) Arifdən sonra səndən soruşacağam.
D) Ox düz hədəfə dəydi.
E) Gəl səninlə birlikdə gedək.

**9. Hansı nümunələrdəki sifətlər çoxaltma dərəcəsindədir?**

1. Bulağın bumbuz suyundan ovuclarına doldurub üzünə vurdu.
2. Otaq bomboş idi: elə bil ki bayaqkı vur-çatlasın bu otaqda baş verməmişdi.
3. Bu sehrli görünüş onun xəyalında olduqca maraqlı bir dünya yaradırdı.
4. İndi Əbülfəz – onun dosdoğma dayısı oğlu belə ona qarşı soyuq davranırdı.
5. Havanın bircə saatın içində dəyişməsi onun planlarını ən az bir gün geriyə saldı.
6. Sabirin tünd rəngdə geyindiyi kostyum onu olduğundan yaşlı göstərirdi.

A) 1, 2, 3  B) 4, 5, 6  C) 1, 3, 5
D) 2, 3, 4  E) 2, 4, 6

**10. Leksik mənası səhv verilmiş sözü müəyyən edin.**

A) tandem – hər hansı bir sahədə bir-birinə uyğun olan, tamamlayan şəxslərin birgə fəaliyyəti
B) nəfis – son dərəcə zərif, incə, gözəl
C) təşəxxüs – lovğalıq, təkəbbürlülük
D) altruist – yüksəkliklərə çıxmaqdan ibarət xüsusi idman növü
E) sahman – qayda, düzgün vəziyyət, səliqə

**11. Bəndlərdəki sual cümlələrindən biri yalnız intonasiya vasitəsilə yaranıb.**
A) Dünən kimə zəng etdiyini sənə deyib?
B) Kimə ürək açdığından xəbərin varmı?
C) Bu işlərin sonu necə olacaq, dostum?
D) Məgər bunlardan xəbərsizsən?
E) Bəs hanı bu yurdun öz sahibləri? (B.Vahabzadə)

**12. Mürəkkəb cümlələrdən biri tərkibindəki sadə cümlələrin sayı baxımından fərqlidir.**
A) Tam sakitlik idi və belə görünürdü ki, evdə heç kim yoxdur.
B) Ovçu Pirim fikirləşdi ki, ceyranın dərisi çox qəşəngdi, aparım bunu padşaha bağışlayım.
C) Mənə elə gəldi ki, gecələr yuxuya getməmişdən əvvəl içinə girdiyim o rənglər aləmi heç vaxt görmədiyim o sirkin rəngləri idi.
D) Bəzən, xüsusən axır vaxtlar mənə elə gəlir ki, o əhvalatları Balakərim danışmayıb, onları mən özüm öz gözlərimlə görmüşəm.
E) Deyirdilər, fırıldaqçısan, inanmırdım.

**13. Yalnız adlıq halda olan sözləri seçin.**
1. ətrin  2. könlün  3. oğulun
4. xalqın  5. zehnin  6. Çiynin

A) 3, 6  B) 1, 4  C) 2, 6
D) 1, 5  E) 2, 4

**14. Hansı bənddə qara hərflərlə verilmiş hissə söz birləşməsi deyil?**

A) **Göz təması** gündəlik ünsiyyətin təbii bir hissəsi olaraq əhəmiyyətlidir.
B) **Dost sözü** nə qədər acı olsa da, üzə deməyi bacarmalıdır.
C) **Səhər saatları** zehni iş üçün faydalı olan zamanlardandır.
D) **Kənd adamları**, həqiqətən, zəhmətkeş olmaqla bərabər əliaçıq olurlar.
E) **İş rejimi** düzgün qurulduqda vaxta qənaət etmək olur.

**15.** ***Sənin qəbahətlərini üzünə deyən düşmən bunları gizlədən dostdan yaxşıdır*. (Sokrat) Aşağıdakılardan hansı bu cümlədəki fikrə daha yaxın məna ifadə edir?**

A) “Dost nədir?” sualının cavabı belədir: “İki bədəndə yaşayan bir ruh” (Aristotel)
B) Mənim ən yaxşı dostum məndəki ən yaxşı cəhətləri görəndir. (Henri Ford)
C) Dostluq sevinci ikiqat edir, dərdi isə yarı bölür. (Frensis Bekon)
D) Düşmənimin düşməni mənim dostumdur. (*Ərəb atalar sözü)*
E) Mənə elə dost lazım deyil ki, hər şeydə mənimlə razılaşsın, mən başımı əyəndə o da əysin, ona qalsa, mənim kölgəm də dostdur. (Plutarx)

**16. Sxemi “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”undakı hadisələrin başvermə ardıcıllığına görə tamamlayın.**

Qazan xan Uruzun qırx igidlə düşmənə qarşı döyüşmək istəyinə razılıq vermir.

⇩

.............................

⇩

.............................

⇩

Qazan xan Burla xatundan atını, nizəsini istəyir.

1. Qazan xan Uruzu görəndə bikef olub ağlayır.
2. Burla xatun kafirin bayrağını qılınclayıb yerə salır.
3. Burla xatun oğlunun ilk ovu münasibətilə hazırlıq görür.
4. Bəylər Qazan xana Uruzun anasının yanına getdiyini deyirlər.
5. Qazan xan kafir sərhədinə ova çıxmağa qərar verir.

A) 1, 2 B) 1, 5 C) 2, 5
D) 3, 5 E) 3, 4

**17. S.Əhmədlinin *“Dərs”* əsəri ilə bağlı yanlış fikri müəyyən edin.**
1. Əsərdə məktəbin direktoru ümumi vəziyyətin təhlükəli olması səbəbindən şagird və müəllimlərin məktəbə gəlməməsini tapşırır.
2. Məqsədin çoxdanışan olmasına rəğmən, Gülzar müəllimə onu çox istəyirdi.
3. Əsərdə 1990-cı ilin 20 Yanvar faciəsi zamanı baş verən hadisələr əks olunub.
4. Gülzar müəllimə təklif edir ki, Məqsəd gətirdiyi daşı məktəbin muzeyinə versin.
5. Əsərin məzmunundan bəlli olur ki, həmin vaxt ölənlərin sayı gizlədilir, yanlış məlumatlar yayılırmış.

A) 3, 5 B) 2, 3 C) 1, 5 D) 1, 4 E) 2, 4

**18. Ə.Xaqaninin "Gənclərə nəsihət" əsəri ilə bağlı *səhv* fikri müəyyən edin.**

A) Əsərdə gənclərə müraciət edilərək fitnəkar olmamaq tövsiyə edilir.
B) Dostluğun şərtlərindən, insanın dostlarının çox olmasının faydalı olmasından da bəhs edilir.
C) Müəllif gənclərə vəfalı olmağı, bivəfalardan uzaq durmağı vəsiyyət edir.
D) "Kiçiklərə nəvaziş göstərsən, böyüklüyünə xələl gəlməz" fikri aşılanır.
E) Müəllifə görə, əsas olan insanın boyunun böyüklüyü deyil, onun əməlinin, ürəyinin böyüklüyüdür.

**19. *"Ay üzünü görüb utandı"* cümləsində hansı bədii təsvir vasitələrini düşünmək mümkündür?**

A) təşbeh, metafor
B) epitet, simvol
C) təşbeh, təşbeh
D) epitet, metafor
E) təşbeh, epitet

**20. Bədii əsərlərdə canlıya aid xüsusiyyətlər digər əşyaların üzərinə köçürülür. Bu baxımdan verilmiş ardıcıllığı düzgün tamamlayan əsər hansıdır?**

1. "Əqrəb və çanaqlı bağa" (M.Seyidzadə)
2. "Kərgədan və qarışqa" (H.Ziya)
3. ......

A) "Qanlı bənövşə" (Ə.Səmədli)
B) "Bahar" (Mir Cəlal)
C) "Azad" (M.İbrahimov)
D) "Manqurt" (Ç.Aytmatov)
E) "Ağac" (İ.Krılov)

**21. H.Ziyanın "Qarabağda" şeiri haqda yanlış fikri müəyyən edin.**
A) Müəllif Qarabağı Azərbaycanın ürəyi hesab edir və bu torpağa göz dikənlərin cəzasına çatacağına inanır.
B) Bu torpağın yetişdirdiyi incəsənət adamlarının adları çəkilməklə Qarabağın mədəniyyət ocağı olduğu fikri aşılanır.
C) Şeirdə bir nisgil, bədbinlik var: doğma torpaqların işğal altında olması müəllifi kədərləndirir.
D) Müəllif Şuşanı Qarabağın baş tacı adlandırır.
E) Əsərdə Qarabağın bizim babaların qədim məskəni olduğu fikri vurğulanır.

**22. *Yanlış* fikri müəyyən edin.**
A) Bədii əsərlərdə həyat hadisələrinin fərqli üsullarla əks olunmasından ədəbi növlər yaranır.
B) Lirik növdə olan əsərlər yalnız nəzmlə, epik növdə olan əsərlər isə yalnız nəsrlə yazılır.
C) Hadisələrin doğurduğu hiss-həyəcanın verilməsinə, yaxud təsvir olunmasına görə poemalar həm epik-lirik, həm də lirik-epik ola bilir.
D) Bir əsərin lirik qəhrəmanı ilə həmin əsərin müəllifini həmişə eyniləşdirmək olmaz.
E) Epik əsərlərdə təhkiyə ilə bərabər təsvir də mühüm yer tutur.

**23. S.S.Axundovun "Nurəddin" hekayəsi ilə bağlı doğru fikri müəyyən edin.**
A) Əsərin ideyası "Yaxşılıq edən yaxşılıq, pislik edən pislik görər" məsəli ilə yaxından səsləşir.
B) Gülpərinin çəkdiyi əziyyətlər öz əməllərinin nəticəsi kimi izah edilə bilməz.
C) Cənnətəlinin məqsədi o idi ki, Nurəddini diləndirməklə özü üçün sərvət toplasın.
D) Bahar Nurəddinin qəyyumluğunu əldə etmək üçün Gülpəriyə düşmən kəsilir.
E) Rəhim Nurəddinin ondan daha üstün bir iş gördüyünü dilə gətirir.

**24. C.Məmmədquluzadənin “Qurbanəli bəy” əsərinin təhlilinə aid edilə bilməz:**

A) Müəllif “məşhur Qurbanəli bəy” ifadəsi ilə kinayədən istifadə etmişdir.
B) Qurbanəli bəy yersiz lovğa hərəkətləri nəticəsində çar məmurlarının yanında aciz və gülünc vəziyyətə düşür.
C) Müəllif əsərin əvvəlində Qurbanəli bəyin həm xarici görkəmi, həm də xarakteri barədə müfəssəl məlumat verir.
D) Hekayədə dərin ictimai mətləblər əksini tapmışdır.
E) Qurbanəli bəyin simasında Azərbaycan mülkədarının acınacaqlı vəziyyəti əks olunur.

**25. Verilmiş əsərlərə əsasən Eyler-Venn diaqramında rənglənmiş hissəyə yazıla bilər:**

1. “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”(“Kitabi-Dədə Qorqud”)
2. “Qanlı bənövşə” (Ə.Səmədli)



A) Övlad öz valideynindən düşmənin kim olduğunu soruşur.
B) Öz yurdundan qovulan insanların taleyi əks olunmuşdur.
C) Müdafiəsiz insanlar düşmən hücumuna məruz qalırlar.
D) Əsər bədbin sonluqla bitir, şər xeyir üzərində qələbə çalır.
E) Övladının layiqli mövqe tuta bilməyəcəyindən narahat olan ata obrazı var.